**UDC:** 070,49
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 439
10.33864/2617-751X.2026.v9.i1.246-259

# AKHBARISM AND ITS PLACE IN SHIITE JURISPRUDENCE

**Mirabbas Mirbaghirov***
**Ibrahim Quliyev****

**Abstract.** In the modern era, Shiism is recognized as one of the most widely followed sects in the Islamic world. Following the establishment of the Safavid state, Shah Ismail Khatai’s proclamation of Shiism as the official state religion and the subsequent policy of institutionalizing Shiite ideology within the empire resulted in the migration of a significant number of religious scholars to Safavid territories. The introduction of a new religious doctrine- Shiism- within the state structure and the growing need for learned scholars to interpret emerging jurisprudential issues accelerated the influx of scholars from various regions into the Safavid realm during the sixteenth and seventeenth centuries. During this period, the migration of scholars from the Jabal Amil region was particularly prominent, and Shiite scholars began to settle extensively in Safavid lands, especially in the capital city. These scholars played an influential role not only in the religious sphere but also in the political and administrative life of the state. At the same time, two major intellectual currents emerged within Shiism, whose representatives disagreed on the methodology for resolving certain jurisprudential issues. Among the most significant currents that developed within Shiite thought and drew attention throughout different historical periods were Akhbarism and Usulism. This article examines Akhbarism from multiple perspectives, including its conceptual foundations, scholarly principles, prominent representatives, position within Shiite jurisprudence, and contemporary attitudes toward it in Azerbaijan. In the section devoted to Akhbari scholars, the lives and works of eminent hadith scholars such as Muhammad Amin Astarabadi, Fayz Kashani, Muhammad Taqi Majlisi, and Yusuf Bahrani are discussed, alongside an analysis of prevailing perceptions of Akhbarism during their respective historical contexts.

**Keywords:** Akhbarism, Hadith, Usulism, Astarabadi, Shiite jurisprudence

---

* Master's student of the 2nd year, Faculty of Islamic Studies, Azerbaijan Institute of Theology; Baku, Azerbaijan
E-mail: m.mirzahiroglu@gmail.com
https://orcid.org/0009-0006-5627-3667
** Doctor of Philosophy in Philosophy, Associate Professor,
Lecturer of the Azerbaijan Institute of Theology; Baku, Azerbaijan
E-mail: quliyev.ibrahim.78@mail.ru
https://orcid.org/0000-0001-9789-3148

**To cite this article:** Mirbaghirov, M., & Quliyev, I. [2026]. AKHBARISM AND ITS PLACE IN SHIITE JURISPRUDENCE. *“Metafizika” journal, 9*(1), pp.246-259.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.246-259
***Article history:***
**Received**: 12.11.2025 **Revised**: 15.12.2025 **Accepted**: 02.02.2026 **Published**: 15.03.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

*“Metafizika” Journal*
*Vol 9, issue 1, serial 37, 2026. pp.246-259*
*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**УДК:** 070,49
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 е)64
**MJ №** 439
10.33864/2617-751X.2026.v9.i1.246-259

# АХБАРИЗМ И ЕГО МЕСТО В ШИИТСКОЙ ЮРИСПРУДЕНЦИИ

**Мираббас Мирбагиров***
**Ибрагим Гулиев****

**Абстракт.** В современную эпоху шиитский мазхаб признается одним из наиболее распространенных течений в исламском мире. После создания государства Сефевидов провозглашение шахом Исмаилом Хатаи шиизма официальным мазхабом и последующая политика развития шиитской идеологии в империи привели к переселению многочисленных ученых в империю. Необходимость в улама (религиозных ученых) для разъяснения новой религиозной идеологии - шиизма - и возникающих в связи с этим фикхских вопросов ускорила процесс переселения ученых из различных регионов в государство Сефевидов в XVI–XVII веках. В этот период переселение ученых в основном из региона Джабаль Амиль приобрело широкий размах, и шиитские ученые начали селиться на территориях, подконтрольных Сефевидам, особенно в столице. Эти ученые участвовали не только в религиозной сфере, но и играли активную роль в политической жизни государства. В то время внутри шиизма существовали два течения, представители которых расходились во мнениях по решению определенных фикхских вопросов. Одним из этих течений, возникших внутри шиитского мазхаба и сохранявших свое влияние в различные исторические периоды, является Ахбаризм, а другим - Усулизм. В данной статье анализируются различные аспекты ахбаризма, такие как его сущность и научные принципы, известные представители, позиция в фикхе и современное отношение к нему в нашей стране. В разделе, посвященном ученым-ахбаритам, представлена информация о жизни и трудах таких выдающихся мухаддисов, как Мухаммад Амин Астарабади, Файд Кашани, Мухаммад Таки Маджлиси и Юсуф аль-Бахрани, а также анализ восприятия ахбаризма в их эпоху.

**Ключевые слова:** Ахбаризм, хадис, усулизм, Астаробади, шиитская юриспруденция

---

* Магистрант 2-го курса, Факультета Исламоведения, Азербайджанского Института Теологии; Баку, Азербайджан
E-mail: m.mirzahiroglu@gmail.com
https://orcid.org/0009-0006-5627-3667
** доктор философии по философии,
преподаватель Азербайджанского Института Теологии; Баку, Азербайджан
E-mail: quliyev.ibrahim.78@mail.ru
https://orcid.org/0000-0001-9789-3148
**Цитировать статью:** Мирбагиров, М., & Гулиев, И. [2026]. АХБАРИЗМ И ЕГО МЕСТО В ШИИТСКОЙ ЮРИСПРУДЕНЦИИ. *Журнал «Metafizika»*, *9*(1), с.246-259.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.246-259
***История статьи:***
**Поступила**: 12.11.2025 **Переработана**: 15.12.2025 **Принята**: 02.02.2026 **Опубликована**: 15.03.2026
**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 070,49
**KBT:** 63.3(2)6-6
**MJ №** 439
10.33864/2617-751X.2026.v9.i1.246-259

# ƏXBARİLİK VƏ ONUN ŞİƏ FİQHİNDƏ YERİ

**Mirabbas Mirbağırov***
**İbrahim Quliyev****

**Abstrakt.** Müasir dövrdə islam aləmində şiə məzhəbi ən çox tərəfdarı olan məzhəblərdən biri olaraq qəbul edilir. Səfəvilər dövlətinin qurulmasından sonra, Şah İsmayıl Xətainin şiəliyi rəsmi məzhəb olaraq elan etməsi və bunun ardınca şiə ideologiyasını imperiya daxilində inkişaf etdirmə siyasəti, imperiyaya çoxsaylı alimlərin köçünə səbəb olmuşdu. Dövlət daxilində yeni dini ideologiya-şiəlik və bundan doğan fiqhi məsələlərin izahı üçün üləmaların varlığına ehtiyac yaranması, XVl-XVll əsrlərdə Səfəvilər dövlətinə müxtəlif bölgələrdən alimlərin gəlişi prosesini sürətləndirdi. Bəhs edilən dövrdə əsasən Cəbəli-Amil bölgəsindən alimlərin köçü vüsət almış, Səfəvilərin hakim olduğu torpaqlarda və əsasən paytaxtda şiə alimlər yaşamağa başlamışdı. Bu alimlər təkcə dini sferada deyil, həm də dövlətin siyasi həyatında da yaxından iştirak edirdilər. Həmin dövrdə şiəlik daxilində iki cərəyan mövcud idi ki, bu cərəyanların nümayəndələri müəyyən fiqhi məsələlərin həllində fikir ayrılığı yaşayırdılar. Şiəlik məzhəbi içərisində yaranmış və tarixin müxtəlif dövrlərində varlığı ilə diqqət mərkəzində olan cərəyanlardan biri Əxbarilik, digəri isə Üsulilik olmuşdur. Bu məqaləmizdə əxbariliyin mahiyyəti və elmi prinsipləri, məşhur nümayəndələri, fiqhdə mövqeyi və hazırda ölkəmizdə münasibət kimi müxtəlif aspektlərdən təhlil edilmişdir. Əxbari alimlər hissəsində Məhəmmədəmin Əstərabadi, Feyz Kaşani, Məhəmməd Təqi Məclisi, Yusif Bəhrani kimi dəyərli mühəddislərin həyatı və əsərləri haqqında məlumatlar verilmiş, onların yaşadığı dövrdə əxbariliyə baxış təhlil edilmişdir.

**Açar sözlər:** Əxbarilik, Hədis, Üsulilik, Əstərabadi, Şiə fiqhi

---

* Azərbaycan İlahiyyat İnstitutunun İslamşünaslıq fakültəsi üzrə ll kurs magistr tələbəsi; Bakı, Azərbaycan
E-mail: m.mirzahiroglu@gmail.com
https://orcid.org/0009-0006-5627-3667
** Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan İlahiyyat İnstitutunun müəllimi; Bakı, Azərbaycan
E-mail: quliyev.ibrahim.78@mail.ru
https://orcid.org/0000-0001-9789-3148

**Məqaləyə istinad:** Mirbağırov, M., & Quliyev, İ. [2026]. ƏXBARİLİK VƏ ONUN ŞİƏ FİQHİNDƏ YERİ. *“Metafizika” jurnalı, 9*(1), səh.246-259.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.246-259
**Məqalənin tarixçəsi:**
**Daxil olub**: 12.11.2025 **Yenidən baxılıb**: 15.12.2025 **Təsdiqlənib**: 02.02.2026 **Dərc olunub**: 15.03.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

İslam tarixində Həzrət Əli (ə) tərəfdarlarının mənsub olduğu, dinimizin ikinci ən böyük məzhəbi olan şiəlik (imamiyyə) daxilində çox sayda cərəyanlar, firqələr meydana çıxmışdır. Bu cərəyanlar əsasən fiqhi hökmlərin yerinə yetirilməsində olan müəyyən üsul fərqliliklərinə görə bir-birindən seçilirlər.

Şiəlikdə son imamın (ə) qeyb dövrünün başlaması ilə meydana çıxan inanc məsələlərinin həll problemi məzhəb daxilində iki cərəyanın yaranmasına təkan vermişdir. Onlardan biri əxbarilik, digəri isə onun əks cəbhəsində yer alan üsulilikdir. Əxbariliyə görə Quranın bəzi ayələrinin izahında, əsasən imamın qeyb dövrü ilə başlayan etiqadi və fiqhi məsələlərin həllində əsas mənbə imamların xəbərləri və hədisləridir. Yaranmış hər bir sualın cavabı hədislərdə mövcuddur.

Qeyb dövrünün müasir dövrümüzə qədər uzanması və bu müddətdə inananların üzləşdikləri fiqhi məsələlərin cavablarının hədislərdə açıq şəkildə yer almaması, əsas istinad mənbələri olan Quran və hədislərə məntiqi yanaşmanı zəruri etmişdir. Bu səbəbdən də ictihad və rasional yanaşma ilə, ayə və hədislərdən suallara uyğun həllin tapılması üsuli cərəyanının yaranmasına səbəb olmuşdur. Hər iki cərəyan təməldə Quran və imam xəbərlərini əsas qaynaq hesab etsə də, üsulilik rasional yanaşma və ictihadı da əldə olunacaq həllə gedən yol kimi qəbul edir. İki cərəyan arasında olan bu fərq əxbari-üsuli məktəbləri və onun yetirmələri arasında müəyyən elmi fikir ayrılıqlarına səbəb olmuşdur.

Günümüzdə dini qaydaların tətbiqində əqli metodların zəruriliyinin nəzərə aldıqda fiqh elminin rasional prinsiplər üzərindən izah edilməsinə daha çox ehtiyac duyulur. Əxbarilərə görə isə ağıl və ictihada müraciət dinin və hədislərin təhrifinə səbəb ola biləcək yoldur. Edilən hər bir müdaxilə mənbənin saflığına xələl gətirə biləcək addım hesab edilir. Bu fikir qarşıdurması şiə fiqh sisteminin formalaşmasına, islam alimləri arasında nəzəri və intellektual yanaşmaların zənginləşməsimə təsir göstərmişdir.

## 2.Əxbarilik - mahiyyəti və elmi prinsipləri

İmamiyyə fiqhində yaranmış və dini hökmləri izah etmək üçün Quran və səhih rəvayətləri, istinad ediləcək yeganə mənbə olaraq göstərən əxbarilik cərəyanı adını “xəbər” kəlməsinin cəmi olan “əxbar” sözündən almışdır. Lüğəvi mənası “müqəddəs sayılan xəbərlər, hədislər” [Seyidəliyev, s.29] olan “əxbar” kəlməsindən törəyən *əxbarilik, əxbariyyə* “dini məsələlərdə rəvayət və nəqllərə bağlananlar” deyə ifadə edilir [Yıldız, s.45]. “Əxbar” kəlməsinin terminoloji olaraq “hədis” mənası da mövcuddur.

Əxbarilik əsasən dini hökmləri Məhəmməd peyğəmbər (s) və 12 imamdan (ə) gəldiyinə inanılan hədislərlə əsaslandırır. Bu cərəyanın formalaşması, sistemli bir hal alması Səfəvilər dövrünə təsadüf edir. O dövrə nəzər saldıqda

Şah İsmayıl Xətai tərəfindən qurulmuş olan bu dövlətin əsas xüsusiyyətlərindən birinin də rəsmi dövlət məzhəbi olaraq şiəliyi elan etməsini müşahidə edirik. Bu faktı dövrün dini və siyasi quruluşu barədə məlumatları özündə əks etdirən mənbələrdə də görə bilərik. Nümunə olaraq: *"Şah İsmayıl 1501-ci ildə Təbrizi ələ keçirdikdə, İranda on iki imam şiəliyini rəsmi dövlət məzhəbi elan etdi"* [Savory, s.51], *"Şah İsmayıl Təbrizi fəth etdikdən sonra İsna əşəri [On iki imamçı] şiəliyini dövlətin dini məzhəbi olaraq elan etdi"* [Roemer, s. 193], *"Şah İsmayılın on iki imam şiəliyini rəsmi məzhəb elan etməsi İran tarixində dönüş nöqtəsi oldu"* [Newman, s.93] *"Səfəvi hakimiyyətinin başlanğıcında Şah İsmayılın şiə rəmzləri və ideologiyası əsasında siyasi hakimiyyət qurduğu, öz tərəfdarlarını bu inanc ətrafında birləşdirdiyi qeyd olunur"* [Munşi, s.276] həm qərb, həm də islam tarixşünaslığında istinad edilən mənbələrdən olan bu misalları göstərə bilərik. Bu nümunələr bizə Səfəvilər dövründə şiəliyin rəsmi dini məzhəb olaraq elan edilməsi haqqında dolğun məlumatlar verir. Bütün bu hadisələr fonunda Səfəvi şahlarının şiə alimlərinə böyük dəstək verdiyinin, Nəcəf, Məşhəd, Qum kimi elm mərkəzləri ilə güclü əlaqələr qurduqlarının və həmin dövrdə kəlam, fiqh, fəlsəfə, üsul elmlərinin inkişafı üçün şərait yaratmalarının, şiə alimlərinə islam hüququnun əsaslarını sistemli hala gətirib, inkişaf etdirmələrinə zəmin yaratmalarının şahidi ola bilirik.

Səfəvilər sülaləsinin 230 illik hakimiyyəti dövründə möhkəm təməllər üzərində olan şiəlik ideologiyasını daha da inkişaf etdirmək, dövlət üçün prioritet məsələlərdən biri idi. Bu məqsədlə Səfəvi şahları o zaman şiəliyin mərkəzlərindən olan - İraq, Bəhreyn və Cəbəlülamildən (Livandan) şiə alimlərini ölkəyə dəvət edib, qısa müddətdə dövlətin mühüm vəzifələrinə təyin edirdilər. Bələliklə şiə alimləri ölkənin siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynamağa başladılar. Bəhs edilən dövrdə din xadimlərinin əvvəlki əsrlərə nisbətən dövlətin ictimai-siyasi həyatındakı fəallığı daha çox diqqət çəkirdi. Səfəvilər dövlətindən əvvəl isə dini və dünyəvi məsələlər bir-birindən ayrı şəkildə idarə olunurdu.

Səfəvilər dövründə mərkəzə dəvət olunan üləmalar arasında hökümətə yaxın mövqelərdə vəzifə sahibi olmaq fikrinə baxış yekdil deyildi. Bu səbəbdən hökümət üləmaları və qeyri-hökümət üləmaları deyilən iki anlayış yaranmışdı. Elm və mədəniyyətə verdikləri töhfələri ilə seçilən alimlər [xüsusilə də, hökümət üləmaları] nüfuzlarından istifadə edərək elm və təhsil mərkəzlərinin qurulmasında vasitəçi olmuşdular. Bu görkəmli alimlərdən biri də Şah Abbas dövründə yaşayıb-yaradan Şeyx Bəhaəddin Amili idi. Hökümətə yaxın olan və olmayan üləmalar fərqli mövqedə olsalar da, ixtilaflı feillərlə çıxış etmir, əksinə elm və təhsil yolunda bir-birlərinə dəstək olurdular.

Şiəlikdə önə çıxan iki əsas sütun olaraq adlandıra biləcəyimiz "əxbarilik" və "üsulilik" adlarından da məlum olduğu kimi dini məsələlərdə imamlardan

gələn rəvayətlərə istinad edilməli olub-olmaması üzərində formalaşmışdır. İmamlardan (ə) sonrakı ilk bir əsr yarımlıq müddətdə onlardan nəql edilən məlumatların, xəbərlərin toplanması ilə başlayan əxbari anlayışı, sonrakı əsrlərdə yerini daha sistematik bir qəlibə təhvil vermiş və artıq hicri on birinci əsrdə nəqllərə söykənən istinadlar olan, sistematik əxbariliyin təməlləri atılmışdır. Bu cərəyan daxilində əsasən peyğəmbər (s) və imamlardan (ə) nəql olunan hədisləri ön plana çıxarma, ictihat və əqli yolların tətbiqini məhdudlaşdırma kimi halları görə bilirik. Əxbarilər özlərinin Əhli-beyti (ə) təqlid etdiyini müdafiə edirlər. Onların düşüncəsinə görə dini hökmlərin mənbəyi ikidir: Quran və sünnə, yəni peyğəmbər (s) və Əhli-beyt imamlarının (ə) hədisləri. Bəzi ifrat dərəcəli əxbarilər isə dini hökmləri əldə etmənin yeganə yolunun hədislər olduğunu müdafiə edir və Qurandakı məlumatların açıq (müfəssər) olmadığını, buradakı hökmləri anlayacaq və şərh edəcək vəzifənin imamlara aid olduğunu, yalnız imamlardan gələn hədislərlə həqiqi məna əldə ediləcəyini müdafiə edirlər. İfrat Əxbariliyin nümayəndələri hətta imamlardan gəldiyi ehtimal olunan bütün hədislərin səhih olduğunu və dində əqli mühakimə və ictihada yer olmadığını iddia edirlər [İzahlı Dini Terminlər Lüğəti, s.83]

Tarixə nəzər saldıqda əxbariliyin 17-ci əsrdə sistematik bir quruluş aldığı və Molla Məhəmmədəmin Əstərabadi [ö. 1623 və ya 1626] tərəfindən sistemləşdirildiyini görmək mümkündür [iranicaonline.org, 2025]. Əxbarilik hərəkatının banisi kimi tanınan Əstərabadinin əsərlərində də ictihad mövzusuna qarşı çıxdığını müşahidə edə bilərik. *“Əl-Fəvaid əl-mədəniyyə”* əsərində müstəqil hüquqi rəy formalaşdırmağı sərt şəkildə rədd edən [islamtimes.com, 2025] Əstərabadi şiə hüquq metodologiyasında “mənbəyə qayıdış” prinsipli sistematik qəlib formalaşdırmışdır. Əxbarilikdə əsasən məntiqi dəlillərə az, bəzən də heç etibar edilmir, rəvayət edilən hadisələrə, imamlardan (ə) gəldiyinə inanılan xəbərlərə əqli müdaxilə edilməməsinə diqqət yetirilir [encyclopedia.com, 2025]. Səbəb isə dini hökmlərin və biliklərin saf halının qorunub saxlanmasıdır. Düşünülür ki, zamanla ictihadçıların, fəlsəfi sistemlərin və üsuli metodların təsiri ilə imamların (ə) rəvayətlərinə müdaxilə olunar və ilkin, saf halına əlavələr ilə kölgə salına bilər [cambridge.org, 2025]. Əsərlərində ictihad və əqli metodların hədis rəvayətlərini nəql etmədə yolverilməz olduğunu müdafiə edən Əstərabadidən sonra, onun bu fikrini və metodologiyasını Yusif əl Bəhrani, Molla Möhsün Feyz Kaşani kimi digər görkəmli alimlər də mənimsəmiş və genişləndirmişlər [Afernia, s.233].

Şiə hüquq metodologiyasında imamların (ə) rəvayətlərində saflığı qoruma həssaslığını özündə cəm edən əxbariliyin əsas və konkret məqsədi yalnız rəvayət mənbələrinə – Quran və hədislərə – istinad edərək fiqhi qərar

çıxarmaqdır və bu səbəbdən qəbul edilən hər bir fikirdə imam sözünə söykənərək saflıq qorunmalıdır.

**3.Əxbari Alimlər**

İslami elmlərin təkamülündə mühüm mərhələni təmsil edən, zəngin irsləri ilə günümüzdə də dini təhsil və tədqiqatlara işıq tutan əxbari alimlər islam dünyasında, xüsusilə şiə ictihadında mühüm rol oynamış elmi cərəyanın nümayəndələridirlər. İslam hüquq sisteminin inkişafı tarixində əxbari məktəbi özünəməxsus yanaşması ilə seçilir. Fiqhi mövzularda Quran və hədis mətnlərinin hərfi təfsirinə istinad edən əxbari alimlər bu şəkildə həssas yanaşmaları səbəbindən dini mətnlərin ən mühafizəkar şərhçiləri olaraq adlandırılır.

Tədqiqatımızın bu hissəsində Əxbari ənənəsinin formalaşmasında mühüm rol oynamış, əxbarilik cərəyanının elmi və məzhəbi formalaşmasına təsir etmiş görkəmli alimlərdən olan Məhəmmədəmin Əstərabadi, Feyz Kaşani, Məhəmməd Təqi Məclisi və Yusif Bəhrani kimi simaların həyatı, elmi fəaliyyəti təhlil ediləcək.

**3.1.Molla Məhəmmədəmin Əstərabadi**

Əxbarilik cərəyanının banisi sayılan Molla Məhəmmədəmin Əstərabadinin [1550-1626] həyatı əsasən Məkkə və Mədinə şəhərlərində keçmiş, o, bu şəhərlərdə həm sünni, həm də şiə alimlərinin əhatəsində olmuşdur. Əsasən Nəcəf və Hələb kimi elm mərkəzlərində dini elmlərə yiyələnən Əstərabadinin ilk hədis müəllimi Məhəmməd ibn Əli ibn Hüseyn Amilidən [ö. 1600] 1598-ci ildə icazətnaməsini almışdır. Gəncliyinin bir neçə ilini Şirazda keçirən alim, sonralar Məkkədə yaşamış və orada [1626-27] vəfat etmişdir [Kohlberg, s.845]. Əstərabadi öz əsərlərində, xüsusilə "***əl-Fəvaid əl-mədəniyyə"*** əsərində üsuli məktəbin əsaslarını tənqid edərək, Əxbari məktəbin prinsiplərini qurmağa çalışmışdır. Əstərabadiyə görə üsulilər müasir məsələlərin həllinə yönələn qanun çıxarmaq üçün ictihad və məntiqi rasionallıqdan istifadə edir, lakin yeganə etibarlı istinad mənbəyi Quran və məsum imamların (ə) hədisləridir. Üsulilərə görə hədislər etibarlılıq nöqteyi-nəzərdən səhih və zəif olaraq təsnif edildiyi halda, Əstərabadi dörd böyük şiə hədis toplusunda olan [Kuleyni, Səduq, Tusi] bütün hədisləri etibarlı sayır. Onları təsnif etmək imamların səlahiyyətlərinə şübhə doğurduğunu deyir [Abisaab, s.18], O, ictihadı "icdihad Allah dinində yeri olmayan bir şəxsi fikirdir [Astarabadi, s.285] [الاجتهاد راي لا مكان له في دين الله] deyə izah edərək bu kimi fikirlərlə əxbariliyin nəzəri əsaslarını formalaşdırmış, ictihadın rəddini, hədislərin mətnə əsasən anlaşılmasını və imamların (ə) dini rəhbərliyini müdafiə edirdi.

**3.2.Molla Möhsün Feyz Kaşani**

Hicri on birinci əsrdə Kaşanın görkəmli şəxslərindən olan Feyz Kaşaninin [ö. 1680] İranda şiəliyin institusionallaşması dövrünə təsadüf edir. Həyatını şiə təlimlərini yaymağa həsr edən Kaşani Quran, hədis, fəlsəfə, əxlaq sahəsində

çoxsaylı qiymətli əsərlərin müəllifidir. Feyz Kaşani ustadlarının elmi-mənəvi fikirlərindən təsirlənmiş və öz əsərləri ilə uyğunlaşdırmağa çalışmışdır. Onun fikrinə görə ağıl, vəhy, təsəvvüf bir-birilə ahəng içindədir və şiə imamlarının hədislərində müxtəlif növ fəlsəfi, mənəvi təlimlərin şahidi olmaq olar [İzahlı Dini Terminlər Lüğəti, s.83].

Səfəvi dövrünün mühüm əxbari alimi, filosofu, ilahiyyatçısı olan Kaşani ərəb və fars dillərində təxminən 150-200 kitab və ya risalə yazmışdır [Lambden]. Sufiyanə meylləri ilə məşhur olan Kaşani ilk təhsilini atası Şah Mürtəzadan almış, onun zəngin kitabxanasından faydalanmışdır. Ailəsinin elmi-intellektual mühitə malik olması səbəbilə, elmə və irfana daha yaxın olmuşdur. Təhsilini davam etdirmək üçün İsfahana getmiş, bir il sonra hədis və fiqh öyrənmək üçün Əxbari məktəbinin aparıcı nümayəndələrindən olan Məcid Bəhraninin yanına, Şiraza köçmüşdür. Gəlişindən bir neçə ay sonra Bəhrani dünyasını dəyişdiyi üçün o, İsfahana qayıdaraq şeyx Bəhaəddin Amuli, Mir Damad və b.-dan dərs almışdır. Sonrakı illərdə Molla Sədranın tələbəsi olmuş, onun fəlsəfəsi ilə öz əsərlərinə yön vermişdir. Ona "Feyz" təxəllüsünü verən müəllimi Molla Sədra öz qızlarından biri ilə onu evləndirmişdir [Algar, s.452].

Feyz Kaşaninin əsərlərinə nəzər saldıqda mövzu üzrə aşağıdakı kimi təsnif edilir:

***Fəlsəfə, kəlam, təsəvvüf:***

"Ayineyi-şahi", "Ənvaru-hikmə", "Eynul-yəqin", "Elmul-yəqin", "Əl-Kəlimatut-tarifə fi zikri mənşə ixtilafil-ümmətil-mərhumə", "Ziyaül-qəlb".

***Fiqh, hədis, təfsir, şeir:***

"Məfatihuş-şərai", "Nəqdül-üsulil-fiqhiyyə", "Ən-Nəvadir", "Əl-Vafi", " Əl-Əsfa", "Təfsirus-Safi", "Divan" və s. [Algar, s.520].

**3.3.Məhəmməd Təqi Məclisi**

1594-cü ildə İsfahanda dünyaya gələn Məhəmməd Təqi Məclisinin soyu ata tərəfindən "Hilyətül-övliya" adlı əsərin müəllifi Əbu Nuaym əl-İsfahaniyə, ana tərəfindən isə Cəbəlülamilin müctehidlərindən olan Dərviş Məhəmməd bin Həsən əl-Amiliyə söykənir [Üzüm, s. 255]. Şiənin hədis mənbəyi sayılan "Biharul-Ənvar"ın müəllifi olan oğlu Məhəmməd əl-Baqirdən fərqlənməsi üçün Məclisiyə "***Məclisi-Əvvəl***" deyə xitab edilmişdir. İsfahanın elm ocaqlarının sayılıb-seçilən alimlərindən və Səfəvi sarayı ilə sıx əlaqələri mövcud olan Məclisi başda Bəhaəddin Amili, Tustəri, İshaq əl-Əstərabadi olmaqla dövrün görkəmli alimlərindən dərs almışdır. Səfəvi hökmdarı ll Şah Abbasla yaxın münasibətləri olan Məclisi, yazdığı əsərləri Şah Abbasa ithaf etmişdir. Müəllimi Şeyx Bəhaəddin Amilinin vəfatından sonra İsfahanın cümə imamlığı vəzifəsinə təyin edilən Məclisi, ömrünün böyük bir qismini Peyğəmbər və Əhli-Beytdən nəql edilən hədisləri toplamağa həsr etmişdir. İmamlardan (ə) nəql edilən hədisləri nəşr edən ilk alim ünvanına sahib olan Məclisi, şiə fiqhinin iki əsas cərəyanlarından olan əxbariliyə meyl etmiş,

imamlardan alınan hədis rəvayətlərinin hər dövrdə [buna qeyb dövrü də daxildir] insanlara açıq yol göstərdiyini, əlavə ictihada ehtiyac olmadığı fikrini müdafiə etmişdir. “Rövzətül-müttəqin”, “Ehyaül-hədis” kimi bir sıra əsərlərin, şərhlərin müəllifi olaraq Məhəmməd Təqi Məclisinin əsərlərində Əhli-Beytin (ə) hədislərindən və təsəvvüfdən örnəklər görmək mümkündür. Özündən sonra hədis toplama işini övladları davam etdirmiş, oğlu Məhəmməd Baqir əl-Məclisi və qızı bu yolda atalarının davamçıları olmuşdur.

**3.4.Yusif Bəhrani**

18-ci əsr şiə alimlərindən olan, mühəddis, fəqih islam aləmində öz dəst-xətti ilə seçilən Yusif Behraninin tam adı Yusif ibn Əhməd ibn İbrahim əd-Dirazi əl-Bəhranidir. 1696-cı ildə Bəhreyndə dünyaya gəlmiş və bu səbəbdən Bəhrani təxəllüsü ilə tanınmışdır. İlk təhsilini ata və babasından almış, daha sonra dövrün tanınmış elm mərkəzlərindən olan Nəcəf, Kərbəla və İranın Xuzistan vilayətində mədrəsədə davam etdirmişdir.

Yusif Bəhraninin yaşadığı dövrə nəzər saldıqda bölgədə hakimiyyət çəkişmələrinin yaşanması və yaranan qarışıqlıqlar səbəbindən Bəhraninin bir neçə dəfə köç etməsinə şahid oluruq. Bəhreyndən Kirmana, Şiraza, Fəsaya köç etmək məcburiyyətində qalan Bəhrani ilk dövrlərdə Fəsa vilayətində bu ərazinin idarəedicisi tərəfindən hörmətlə qarşılanmış, xəracdan azad edilmiş, müəllimlik fəaliyyəti ilə yanaşı, əkinçiliklə də məşğul olmasına şərait yaradılmışdır. Çox keçmədən rəhbərin vəfatından sonra bu haldan istifadə edən üsulilər Bəhraninin evinə basqın etmiş və ona məxsus kitabları yağmalamışlar. Yaşanan hal qarşısında Qəzvinə köç edən Bəhraninin ardınca ərazidə əxbari-üsuli mübahisələri özünün ən pik həddinə gəlib çatmışdı. Bu səbəbdən İranı tərk edən alim Kərbəlaya köç edərək ömrünün sonuna qədər [1772] burada yaşamışdır.

Kərbəlada yaşadığı dövr ərzində əxbari-üsuli qarşıdurmasının, ixtilaflı məsələlərin aradan qaldırılması üçün əlindən gələni əsirgəməmiş, eyni zamanda saysız-hesabsız görkəmli alimlərin müəllimi olmuşdur. Kərbəlada vəfat edən [1772/1774] Bəhrani Əstərabadidən sonra əxbari düşüncəsinin sistemləşdirilməsində əvəzsiz rolu olan bir şəxsiyyətdir. Onun fiqh sahəsində yazılmış “*Əl-Hədaiq ən-Nadira”* adlı çoxcildli əsəri rəvayət mərkəzli fiqh yanaşması və əxbariliyin zirvə nöqtəsi olma xüsusiyyətini daşıyır. Əxbarilər və üsulilər arasındakı ixtilafın çox şişirdildiyini, iki cərəyan arasındakı fərqin sadəcə rasionalist baxış olmasından ibarət olması, nəticədə yenə istinad ediləcək və üzərində araşdırma aparılacaq mənbənin imamlardan (ə) və peyğəmbərdən (s) gələn hədislər olmasını söyləməsi onun bu iki cərəyan nümayəndələrinin bir-birinə olan düşmənçiliyini aradan qaldırmaq üçün humanist mövqe sahibi olmasına bir nümunədir. Onun bu addımı hər nə qədər humanist mövqeyə sahib olmasından xəbər verirdisə də, onunla yanaşı üsuli məktəbin qabaqcıl simalarından olan “müctehidlər ustadı” adlanan Bəhbəhani

üsuli tərəfdarlarına qarşı barışmaz mövqe tutan Bəhrani ilə elmi bəhslər edərək öz etiqadını təsdiqlətmişdir. Bəhrani də Kərbəlada Bəhbəhaninin fəaliyyətinə izn vermiş, üsuli cərəyanının öyrənilməsi, tədqiq və təbliğinə şərait yaratmışdır [Uyar, s.430].

Əxbari məktəbinin son dövr klassik alimi olan Bəhrani bir çox dəyərli əsərlərin müəllifidir. Onun “*Əl-Hədaiq”* əsəri hətta onunla fikir ayrılığında olan üsuli alimlər tərəfindən belə yüksək qiymətləndirilmiş və istinadlar olunan əsərə çevrilmişdir. Bu səbəbdən Bəhraniyə “*Sahibul-Hədaiq”* olaraq xitab edilmiş və əsərin əsl sahibinin o olmasına işarə verilmişdir. Bu əsərdə onun üsuli metodlar haqqında olan “*İctihad əhli imamların hədislərini öz anladıqları kimi yozur, halbuki Allahın dini məsumların sözlərində gizlidir”* [Bahrani, s. 85] fikri əxbarilikdə olan mövqeyini nümayiş etdirir.

**4.Əxbariliyin şiə fiqhində yeri**

Şiə hüquq sistemində mənbə mərkəzli yanaşmaya söykənən və islamda məsum imamların hədislərindən və Qurandan başqa heç bir mötəbər dəlilin olmadığı fikrinin təməlləri üzərində qurulan əxbarilikdə bu yanaşmanın səbəbi kimi “*Səqəleyn hədisi”*ni görə bilərik:

انی تارک فیکم الثقلین کتاب الله وعترتی ما ان تمسکتم بهما لن تضلوا بعدی: کتاب الله فیه‌الهدی والنور حبل ممدود من السماء الی الارض وعترتی اهل بیتی وان اللطیف الخبیر قد اخبرنی‌انهما لن یفترقا حتی یردا علی الحوض وانظروا کیف تخلفونی فیهما.

*Tərcümə* “Sizin aranızda iki qiymətli əşya [əmanət] qoyuram: Allahın kitabı və Əhli-Beytim. Bunlara bağlansanız, zəlalətə düşməzsiniz. Bunlar [Qiyamət günündə] Cənnət hovuzunun kənarında mənim hüzuruma çatana kimi bir-birindən ayrılmazlar” [imameli.az, 2025].

Əxbarilikdə rəvayət edilmiş mətnlərə [hədislərə] sadə yanaşma mövcud olub, onlar üzərində əlavə əqli çıxarış aparmaq əvəzinə həmin mətnlərin həqiqi mənasına bağlı qalmaq təşviq edilir [encyclopedia.com, 2025]. 12-ci imamın (ə) böyük qeybindən sonra yaşanacaq hadisələr və bundan doğan sualların cavabını tapmaqda belə Əhli-beyt ənənələrinə və xəbərlərinə əməl edilməsinə, bundan doğan nəticələrə etibar edilir. Fətvalar əgər ictihada əsaslanırsa bu zaman Əxbarilikdə bu fətvaya yer verilmir.

Əxbari cərəyanında dini təbliğlə məşğul olan şəxslərin siyasətdə mövqe tutmasına izn verilmir. Bununla belə vilayəti-fəqih anlayışı rədd edilərək, dini təbliğ edən məsul şəxslərin dövlət və hökümət idarəçilərinə yalnız məsləhət verməsinin doğru olduğu fikri müdafiə edilir. Dinlə dövlətin ayrı olduğunu və bunları birləşdirəcək yeganə şəxsin sonuncu imam (ə) olduğunu, [Momen, s.185] onun zühurundan sonra bu hadisənin [dinlə dövlətin birləşdirilməsi] baş tutacağı əsas fikirdir.

Bu cərəyan daxilində mövcud olan fikirlərdə hüquqi qərar qəbul olunmasında fəlsəfi rasionallaşma məhdudlaşdırılır [islamtimes.com, 2025]. Mövcud olan hədis rəvayətlərindən və Qurandan savayı başqa heç bir

mənbənin fiqhi qərarını qəbul etməyən əxbarilikdə bir şeyin halal və haramlığı şübhə altındadırsa, o zaman haqqında şübhə duyulan şey haram olaraq qəbul edilir [al-islam.org, 2025].

**5.Nəticə**

Nəticə olaraq ifadə etsək, şiəlikdə iki əsas cərəyandan biri olan əxbarilik, dini hökmləri imamlar dövründə bir başa məsumların özlərindən almağı, imamlardan sonrakı dövrdə (buna qeyb dövründə yaranan günümüzdəki problemlər və suallar da daxildir) isə onlardan günümüzə qədər gələn hədislərindən və Quran ayələrindən almağı əsas götürürlər. Bəzi ifrat əxbarilər isə yalnız imam xəbərlərinə, hədislərinə istinad edirlər. Onların fikrincə Quran müfəssər olmayıb, ondakı ayələri şərh etmək xüsusiyyətinə ancaq məsum imamlar sahibdirlər. Bu səbəbdən də imamların həyatda olduğu müddətdə Qurandan hökm çıxarmaq onların öz səlahiyyətlərinə aid olub, qeybdən sonrakı dövrdə Quranı şərh etmək vəzifəsi heç kimə məxsus olmamışdır. Əldə olunacaq hökmlər üçün bu dövrdə sadəcə yeganə istinad mənbəyi isə hədislər olaraq qəbul edilir. İctihad və əqli mühakiməyə yer olmayan əxbarilikdə imamlardan (ə) gələn bütün hədislər səhih qəbul edilir. Digər tərəfdən bu hal uzun müddət davam etməmiş, əxbarilik qarşısında əqli üstün sayan, ictihad nəticəsində fiqhi hökmlərlə fətva verən üsulilik üstünlük təşkil etmişdir. Tarixin müəyyən dövrlərində bu iki cərəyan arasında qarşıdurma görünsə də, Yusif Bəhrani kimi mühəddislər daha humanist mövqe tutmuş və fikir ayrılıqlarının düşmənçiliyə səbəb olmamalı olduğunu vurğulamışlar. Bu gün əxbarilik islam elmləri sahəsində tədqiq olunan bir mövzu kimi diqqət çəkir. Günümüzdə əhalisinin əksəriyyəti şiə olan Azərbaycanda dini elmlər əsasən əqli mühakiməyə əsaslanır. İctihad, müctehidin təqlidi Azərbaycan ərazisində yaşayan şiə məzhəbinin nümayəndələrinin seçimidir. Bu səbəbdən də üstünlüyün üsuliliyə verildiyini demək mümkündür.

Əxbarilik hər nə qədər günümüzdə yayılıb, inkişaf etməsə də, bu cərəyanın ideologiyası müsbət tərəfləri ilə şiə məzhəbinin nümayəndələri üçün yaxşı örnək təşkil edir. Misal üçün, məsumlara (ə) hörmət, onlardan gələn hədislərə əlavələr edilməsinin qadağan edilməsi, hədislərin saflığına şübhə salacaq əlavə şərhlərdən kənar olmaq, hədisləri əmanət bilib sadiqlik nümayiş etdirmək bu cərəyanın müsbət keyfiyyətlərindən qəbul edilir.

## 6.ƏDƏBİYYAT

1. Seyidəliyev, N. (2015). *Dini terminlər lüğəti*. Bakı: Elm və Təhsil, s.29.
2. Yıldız, S. (2020). *İmamiyye Şiasının kıraat tasavvurları*. Ankara (Çankaya): İlahiyyat Yayınları, s.397.
3. Savory, R. M. (1980). *Iran under the Safavids*. Cambridge: Cambridge University Press.

4. Roemer, H. R. (1986). The Safavid period. In *The Cambridge History of Iran* (Vol. 6). Cambridge: Cambridge University Press.
5. Newman, A. J. (2006). *Safavid Iran: Rebirth of a Persian empire*. London: I. B. Tauris.
6. Münşi Türkman, İ. B. (2009). *Tarix-i aləmara-yi Abbasi*. Bakı: Təhsil, s. 792.
7. *İzahlı dini terminlər lüğəti*. (2020). Bakı: Nurlar Nəşriyyatı, 320 s., s.83.
8. Kohlberg, E. (1987). Astarabadi, Molla Mohammad Amin. *Encyclopaedia Iranica*. Retrieved from https://www.iranicaonline.org/articles/astarabadi-molla-mohammad-amin-b/
9. Sahibi, M. J. (2009). Akhbarism and the ideology of reform. *Islam Times*. Retrieved from https://www.islamtimes.com/en/article/6823/akhbarism-and-the-ideology-of-reform
10. Akhbariyya. *Encyclopedia of Islam and the Muslim World*. Retrieved from https://www.encyclopedia.com/religion/encyclopedias-almanacs-transcripts-and-maps/akhbariyya
11. Abisaab, R. J. (2015). Shiʿi Jurisprudence, Sunnism, and the Traditionist Thought (Akhbārī) of Muhammad Amin Astarabadi (D. 1626–27). *International Journal of Middle East Studies*, *47*(1), 5–23. https://doi.org/10.1017/S0020743814001421
12. Arefnia, T. (2023). The course of the evolution of the fundamental ideas and works of Allame Feyz Kashani: From Usuli to Akhbari. *Islamic Law and Jurisprudence Studies*, *15*(30), 233–262. https://doi.org/10.22075/feqh.2022.22914.2811
13. Astarabadi, M. A. (1623/2007). *Al-Fawaid al-Madaniyya*. Qum: Nashr al-Hadith.
14. Parsa, F. (2022). The analysis of Feyz Kashani’s thoughts, a renowned Kashani figure. *Studies of Kashan*, *14*(2), Serial No. 27, pp.119–134. https://doi.org/10.22052/KASHAN.2022.243057.1019
15. Lambden, S. (2017). *Fayḍ al-Kāshī / Kāshānī, Muhammad ibn Murtaḍá (d. 1090/1680).* UC Merced. Retrieved from https://hurqalya.ucmerced.edu/node/3161
16. Algar, H. (1999). Fayz-e Kasani, Molla Mohsen-Mohammad. *Encyclopaedia Iranica*, Vol. IX, Fasc. 5, pp.452–454. Retrieved from https://www.iranicaonline.org/articles/fayz-e-kasani/
17. Algar, H. (1995). Feyz-i Kaşânî. *TDV İslam Ansiklopedisi*, Cild 12. İstanbul, s.520–522.
18. Üzüm, İ. (2003). Akhbâriyye. *TDV İslam Ansiklopedisi*, Cild 28. Ankara, s.255.
19. Uyar, M. (1999). Ibn Usfur El-Bahrani. *TDV İslam Ansiklopedisi*, Cild 20. İstanbul, s.430–431. https://islamansiklopedisi.org.tr/ibn-usfur-el-bahrani

**20.** Bahrani, Y. (1999). *Al-Hadaiq al-nadira fi ahkam al-itra al-tahira* (Vols. 1–26). Qum: Muassasat al-Nashr al-Islami, p.135.
**21.** *İmameli.az* (2020). Əhli-sünnə rəvayətlərində Səqəleyn hədisi. Retrieved from https://imameli.az/mubahise/795-ehli-sunne-revayetlerinde-seqeleyn-hedisi.html
**22.** Momen, M. (1985). *An introduction to Shi'i Islam: The history and doctrines of Twelver Shi'ism*. Oxford: G. Roland, p.185. ISBN 978-0-85398-201-2.
**23.** Al-Samawi, M. A. (n.d.). *Then I was guided*. Islamic Seminary Publications. Retrieved from https://al-islam.org/then-i-was-guided-muhammad-al-tijani-al-samawi

## REFERENCES

1. Seyidaliyev, N. (2015). *Dictionary of religious terms*. Baku: Elm ve Tehsil, p.29. (in Azerbaijani)
2. Yildiz, S. (2020). *Recitation conceptions in Imami Shiism*. Ankara (Cankaya): Ilahiyyat Yayinlari, p.397. (in Turkish)
3. Savory, R. M. (1980). *Iran under the Safavids*. Cambridge: Cambridge University Press. (in English)
4. Roemer, H. R. (1986). The Safavid period. In *The Cambridge history of Iran* (Vol. 6). Cambridge: Cambridge University Press. (in English)
5. Newman, A. J. (2006). *Safavid Iran: Rebirth of a Persian empire*. London: I. B. Tauris. (in English)
6. Munshi Turkman, I. B. (2009). *Tarikh-i alamara-yi Abbasi*. Baku: Tehsil, p.792. (in Azerbaijani)
7. *Annotated dictionary of religious terms*. (2020). Baku: Nurlar Nesriyyati, 320 p., p.83. (in Azerbaijani)
8. Kohlberg, E. (1987). Astarabadi, Molla Mohammad Amin. *Encyclopaedia Iranica*. Retrieved from https://www.iranicaonline.org/articles/astarabadi-molla-mohammad-amin-b/ (in English)
9. Sahibi, M. J. (2009). Akhbarism and the ideology of reform. *Islam Times*. Retrieved from https://www.islamtimes.com/en/article/6823/akhbarism-and-the-ideology-of-reform (in English)
10. Akhbariyya. *Encyclopedia of Islam and the Muslim World*. Retrieved from https://www.encyclopedia.com/religion/encyclopedias-almanacs-transcripts-and-maps/akhbariyya (in English)
11. Abisaab, R. J. (2015). Shiʿi jurisprudence, Sunnism, and the traditionist thought (Akhbari) of Muhammad Amin Astarabadi (d. 1626–27). *International Journal of Middle East Studies*, *47*(1), pp.5–23. https://doi.org/10.1017/S0020743814001421 (in English)

**12.** Arefnia, T. (2023). The course of the evolution of the fundamental ideas and works of Allame Feyz Kashani: From Usuli to Akhbari. *Islamic Law and Jurisprudence Studies*, *15*(30), pp.233–262. https://doi.org/10.22075/feqh.2022.22914.2811 (in English)

**13.** Astarabadi, M. A. (1623/2007). *Al-Fawaid al-Madaniyya*. Qum: Nashr al-Hadith. (in Arabic)

**14.** Parsa, F. (2022). The analysis of Feyz Kashani's thoughts, a renowned Kashani figure. *Studies of Kashan*, *14*(2), Serial No. 27, pp.119–134. https://doi.org/10.22052/KASHAN.2022.243057.1019 (in English)

**15.** Lambden, S. (2017). *Fayd al-Kashani (Muhammad ibn Murtada, d. 1090/1680).* UC Merced. Retrieved from https://hurqalya.ucmerced.edu/node/3161 (in English)

**16.** Algar, H. (1999). Fayz-e Kashani, Molla Mohsen-Mohammad. *Encyclopaedia Iranica*, Vol. IX, Fasc. 5, pp.452–454. Retrieved from https://www.iranicaonline.org/articles/fayz-e-kasani/ (in English)

**17.** Algar, H. (1995). Feyz-i Kashani. *TDV Islam Ansiklopedisi*, Vol. 12. Istanbul, pp.520–522. (in Turkish)

**18.** Uzum, I. (2003). Akhbariyya. *TDV Islam Ansiklopedisi*, Vol. 28. Ankara, p.255. (in Turkish)

**19.** Uyar, M. (1999). Ibn Usfur al-Bahrani. *TDV Islam Ansiklopedisi*, Vol. 20. Istanbul, pp.430–431. Retrieved from https://islamansiklopedisi.org.tr/ibn-usfur-el-bahrani (in Turkish)

**20.** Bahrani, Y. (1999). *Al-Hadaiq al-nadira fi ahkam al-itra al-tahira* (Vols. 1–26). Qum: Muassasat al-Nashr al-Islami, p.135. (in Arabic)

**21.** *Imameli.az*. (2020). The Hadith of Thaqalayn in Sunni narrations. Retrieved from https://imameli.az/mubahise/795-ehli-sunne-revayetlerinde-seqeleyn-hedisi.html (in Azerbaijani)

**22.** Momen, M. (1985). *An introduction to Shi'i Islam: The history and doctrines of Twelver Shi'ism*. Oxford: G. Roland, p.185. ISBN 978-0-85398-201-2. (in English)

**23.** Al-Samawi, M. A. (n.d.). *Then I was guided*. Islamic Seminary Publications. Retrieved from https://al-islam.org/then-i-was-guided-muhammad-al-tijani-al-samawi (in English)